

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 118 (21.779)

22 iyun 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Fransa Respublikasının sabiq Baş naziri, "Villepin International" şirkətinin prezidenti Dominik de Vilpeni qəbul edib.

Prezident İlham Əliyev Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü və ölkənin inkişafı ilə bağlı genişmiqyaslı işlərin həyata keçirildiyini deyib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti ilə Fransa Respublikasının sabiq Baş naziri Dominik de Vilpen arasında bundan əvvəl keçirilən görüşlər zamanı səmərəli və məhsuldar müzakirələrin aparıldığı məmnunluqla qeyd edilib, Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin siyasi, iqtisadi, energetika, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb və əməkdaşlığımızın bundan sonra da möhkəmləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirilib.

* * *

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak edib.

Prezident İlham Əliyev Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 21 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyət göstərən bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçuları da vardır.

**Hüseynov Rasim Vaqif oğlu**
**Məmmədov Mətləb Tahar oğlu**
**Rzayev Əli Hüseyn oğlu**
**Tağıyev Cəfərqulu Mazan oğlu**

"Tərəqqi" medalı ilə,

**Ağayev Davud Nağı oğlu**
**Bayramov Rafiq Bayram oğlu**
**Əliyev Hicran Əmir oğlu**
**Əliyev Natiq Həsən oğlu**
**Əliyeva Turqayə Yadigar qızı**
**Nəcəfalıyev Nəcəfalı Əziz oğlu**
**Rzayev Fizuli Hümbət oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## 2017-ci ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2017-ci ilin yanvar-may aylarında 927 milyon 928 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz artaraq 2063 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 419 milyon 860 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,1 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 385 milyon 518 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın 361 milyon 724 min manatı və ya 93,8 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2017-ci ilin yanvar-may aylarında 49 milyon 552 min 400 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 2,9 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 8531,3 ton ət, 35090 ton süd istehsal edilmiş, bir il öncəyə nisbətdə ət istehsalı 2,2 faiz, süd istehsalı 1,7 faiz artmışdır.

* * *

2017-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin həcmi 20 milyon 254 min 700 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin həcmi ilə müqayisədə 2,3 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin həcmi 16 milyon 521 min 200 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,9 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 9 milyon 271 min 600 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 2 milyon 16 min 900 manatı və yaxud 21,8 faizi qısamüddətli, 7 milyon 254 min 700 manatı və yaxud 78,2 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 iyun 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 59780-ə çatmışdır ki, bunun da 50671-i və ya 84,8 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-may aylarında açılmış 16434 bank hesabının 16382-si aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2017-ci il tarixə 1249-a çatmışdır.

* * *

2017-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 3 milyon 13 min 700 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 28,4 faiz çoxdur.

* * *

2017-ci ilin yanvar-may aylarında muxtar respublikaya 153 min 305 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz və ya 5763 nəfər çoxdur.

* * *

İqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-may aylarında muxtar respublikada 135 milyon 176 min 800 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,2 faiz artaraq 126 milyon 986 min 500 ABŞ dolları, idxalın həcmi 46,2 faiz azalaraq 8 milyon 190 min 300 ABŞ dolları təşkil etmiş, 118 milyon 796 min 200 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar-may aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 666 milyon 56 min 100 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,1 faiz artaraq 1480,8 manat təşkil etmişdir.

* * *

2017-ci ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 414 manat təşkil etmiş və bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz artmışdır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin yığıncağı keçirilib



***İyunun 21-də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin 2017-ci ilin I yarımili ərzində gördüyü işlər və II yarımili ərzində görəcəyi işlərlə bağlı yığıncaq keçirilib.***

Yeni Azərbaycan Partiyası rayon (şəhər) təşkilatlarının gənclər birliklərinin sədrləri, ali təhsil müəssisələrinin gənclər təşkilatlarının sədrləri və fəal tələbələrin iştirak etdiyi yığıncaqda gündəlikdə duran məsələlər səsləndirildikdən sonra çıxışlar dinlənilib.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gənclər Birliyinin sədri Mirkərim Seyidov, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Gənclər Birliyinin sədri Elvin Məmmədov çıxış edərək cari ilin birinci yarısında görülmüş işlər haqqında məlumat veriblər.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov çıxışında bildirib ki, partiya xalq-hakimiyyət həmrəyliyinə əsaslanan, ölkəni böhrandan xilas etməyə qadir yeni siyasi qüvvəyə ehtiyac duyulan mürəkkəb ictimai-siyasi şəraitdə yaranıb. Yeni Azərbaycan Partiyası yarandığı dövrdən ötən müddət ərzində ölkəmizdə demokratiya prinsipləri əsasında dövlət təsisatlarının yaranması və müxtəlif islahatların həyata keçirilməsində fəal rol oynayıb. 2001-ci il noyabrın 21-də partiyanın II qurultayında ulu öndər Heydər Əliyevin dediyi kimi: ***"Həqiqi demokratiya Yeni Azərbaycan Partiyasına mənsubdur".*** Bunu partiyanın ölkədə keçirilən seçkilərdə yaratdığı demokratik şəraitin timsalında da aydın görmək olar. Məhz bu inam və etibarın nəticəsində 2003-cü ildə keçirilən prezident seçkilərində xalq birmənalı olaraq cənab İlham Əliyevi Prezident seçdi. 2008 və 2013-cü illərdə də xalqın yenidən yekdilliklə cənab İlham Əliyevə səs verməsi partiyaya olan dərin inamın təzahürü idi.

Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sıralarında 21 min 47 nəfər gənc birləşib ki, onların da 10 min 862 nəfərini qadınlar təşkil edir. Partiyaya üzv olan gənclərin 4961-i təhsil, 2156-sı səhiyyə, 1528-i elm, mədəniyyət və incəsənət, 2320-si idarəetmə, 5257-si isə digər sahələrdə fəaliyyət göstərir.

Vurğulanıb ki, bu gün partiya üzvləri qarşısında mühüm vəzifələr durur. Belə ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri təşkilatın Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasında bir sıra tapşırıqlar verib. Bununla bağlı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin şəhər (rayon) təşkilatlarının gənclər birliklərinin də üzərinə mühüm vəzifələr düşür. Gənclər birlikləri öz fəaliyyətlərini partiyanın 2017-ci ilə dair iş planına uyğun qurmalı, nəzərdə tutulmuş tədbirlər vaxtında icra olunmalıdır.

Bildirilib ki, bu gün muxtar respublikada uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Vətənpərvər gənc nəslin yetişdirilməsi, onların intellektual potensiallarının daim zənginləşdirilməsi məqsədilə yaradılan şərait gənclərin ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmalarına geniş imkanlar açır. Elmi müəssisələrin, məktəblərin kompüterləşdirilməsi, gənclərin virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar muxtar respublikamızda gənclərin intellektual səviyyəsinin inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Gəncliyə dövlət qayğısı sabaha və gələcək uğurlara hesablanan bir siyasətdir.

Qeyd olunub ki, hər birimiz partiyanın qarşımıza qoyduğu vəzifələri layiqincə icra etməli, müstəqil Azərbaycanın daha da inkişafı naminə var gücümüzlə çalışmalıyıq.

Azad Cabbarov bu yolda partiya üzvlərinə uğurlar arzulayıb.

✍ Səbuhi HƏSƏNOV

# Dövlət proqramlarının uğurlu icrası Ordubadın meyvəçilik şöhrətini özünə qaytarır

*Son illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair bir çox dövlət proqramları qəbul edilib. Bu proqramlar içərisində muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı ardıcıl olaraq qəbul edilmiş dövlət proqramları isə daha çox diqqəti çəkir. Çünki tarixən aqrar region kimi formalaşmış muxtar respublikada təsərrüfatçılıq ənənələri özünəməxsusluğu ilə seçilib və keçmişdən üzübəri hər iki sahə yerli əhalinin əsas məşğuliyyət sahələrindən olub. Buna görə də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramları regionda əhalinin ənənəvi əkinçilik sahələri ilə məşğulluğunun təmin edilməsində, eyni zamanda muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanmasının əsasını qoyub.*



Qeyd edək ki, həm 2012-2015-ci, həm də 2016-2020-ci illərdə həmin proqramların icrası regionda hər iki sahə üzrə ixtisaslaşmanın elmi şəkildə tətbiqini ön plana çıxarıb. Bu amil muxtar respublikanın əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunması ilə yanaşı, meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsində ənənəvi üsullara üstünlük verilməsinə və əkinçilikdə yeni metodların tətbiqinə də geniş imkanlar açıb. Nəticədə, muxtar respublikada ildən-ilə meyvəçilik və tərəvəzçilikdə dinamik artımın müşahidə edilməsi bu sahələrin iqtisadiyyatda rolunu artırır. Təbii ki, meyvəçilik və tərəvəzçiliyin inkişafında muxtar respublikanın hər bir bölgəsinin öz payı var. Ordubad rayonu isə tarixən Naxçıvanda meyvəçiliyin əsas mərkəzi kimi tanınır. Bəs bu gün Ordubadda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı hansı mərhələdədir? Bu sahədə həyata keçirilən tədbirləri necə xarakterizə etmək olar?

Tarixi mənbələrdə Ordubadın meyvəçilik diyarı kimi ad-san qazanması orta əsrlərə gedib çıxır. Qeyd olunur ki, XVII-XVIII əsrlərdə Ordubadda, demək olar ki, hər həyətdə meyvə bağı olub. Bu bağlarda yetişən şaftalı, gilas, ərik, albalı, alça, gilənar, gavalı, cəviz və digər meyvələr bütün Qafqazda tanınıb. Naxçıvan xanlığının Dəstə, Biləv mahallarında çox keyfiyyətli cəviz yetişdirilib. Yüksək keyfiyyətinə görə əhali bu məhsulu kilo ilə deyil, ədədlə hesablayıb. Əldə edilən məhsuldan vergi də ədədlə alınıb. Ümumiyyətlə, XVIII əsrin son onilliyində Ordubad rayonunda 1386 bağ olub, onlardan 193-ü böyük sahələri əhatə edib. Burada yetişdirilən meyvələrin şöhrəti dünyanın bir çox ölkələrinə yayılıb. Elə bu amil də dünya səyyahlarının Ordubada marağını artırıb. Onlar həmin meyvələr haqqında məxəzlərdə ətraflı məlumatlar veriblər. Məsələn, Ordubad bağlarından böyük heyranlıqla danışan səyyah İ.Şopen yazır ki, burada almanın, armudun, şaftalının və gavalının çoxlu növləri yetişdirilir. Onun yazdığına görə, Ordubadın "gülabi" adlı armudu öz dadına və xüsusilə böyüklüyünə görə seçilirdi. Bu armudlar tam yetişərkən o qədər böyük olurdular ki, onların ikisini bir boşqaba yerləşdirmək mümkün olmurdu. Ordubad həm də mənbələrin əksəriyyətinin "albuxara" adlandırdığı alça və gavalılarla məşhur idi. Səyyahların bir çoxu yerli ərik sortlarının müalicəvi xüsusiyyətləri, bu meyvə sortlarının yayılma arealı barədə ətraflı məlumatlar veriblər. İ.Şopenə görə, XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Ordubadda bağlar bütün ərazinin yarıdan çoxunu əhatə edirdi. Bəzi məlumatlara görə, XVIII əsrin sonuncu onilliyində Naxçıvanda yetişdirilən 2495 pud meyvənin çox böyük hissəsi Ordubad bağlarının payına düşürdü.

Ordubadda yetişdirilən meyvələrin müxtəlif sortları vardır. Məsələn, şaftalının ağnazlısı, narıncısı, yarma zəfəranı, ağ alanayısı, hulusu, payız salamısı və güştüsü öz dadı və tamı ilə tanınır. Ağ təbərzə, əbutalibi kimi ərik sortları yüz illərdir ki, Ordubadın meyvəçilik sahəsində simvoluna çevrilib. Meyvələr zahiri görünüş cəhətdən nə qədər gözəldirsə, bir o qədər də şirin, lətif və ətirlidir. Onu da qeyd edək ki, Ordubadın dünya şöhrəti qazanmış meyvələri müxtəlif beynəlxalq sərgilərdə nümayiş etdirilib. 1861-ci ildə Ordubad şaftalısı ABŞ-da təşkil edilmiş meyvəçilik sərgisində yüksək qiymətə layiq görülüb. Bu meyvə həmin qiyməti həm də Almaniyada və İtaliyada alıb, eyni zamanda Moskvada keçirilən ümumittifaq kənd təsərrüfatı sərgilərində yüksək dəyərləndirilib. Əbutalibi əriyi hələ 1898-ci ildə Kaliforniyada təşkil olunmuş ümumdünya meyvəçilik sərgisində birinci yerə layiq görülüb. Ümumilikdə isə Ordubad meyvələri dəfələrlə beynəlxalq sərgilərə çıxarılıb, 9 medal qazanılıb.

Ordubad öz meyvə quruları (qaysava, qaysı, alana, basdıq və sair) ilə də tanınıb. Burada meyvələri quruduraq qışa saxlamaq və çay süfrələrində onlardan istifadə etmək ənənəsi yerli məişətdə çox geniş yayılıb. Vaxtilə bu bölgədə 40 növdə üzüm yetişdirilib. XX əsrin əvvəllərində Azərbaycanda yetişdirilən 40-dan artıq ərik növünün çoxu Ordubadın payına düşüb. Burada həm də geniş əraziləri əhatə edən tut bağları olub. Bu ağacın meyvəsindən çərəz kimi istifadə olunur, doşab bişirilir, yarpaqlarından baramaçılıqda istifadə edilirdi. Ancaq dəfələrlə müxtəlif yazılarda qeyd etdiyimiz kimi, ötən əsrin 90-cı illərində məlum ictimai-siyasi transformasiya dövründə bir çox sahələr kimi, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı da səngiyib. Məlum səbəblər üzündən meyvə ağacları əhali tərəfindən kəsilərək qış dövründə yanacaq kimi istifadə olunub.

Sonrakı illərdə isə bu sahədə nisbətən irəliləyiş müşahidə olunub. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafında əsas mərhələ isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamla təsdiq etdiyi "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsindən sonra başlayıb. Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Zamiq Babayev bizimlə söhbətində bildirdi ki, bu sahədə qəbul edilmiş ilk proqram əhalinin bu ənənəvi təsərrüfat sahəsinə qayıdışında mühüm rol oynayıb. Müsahibimiz qeyd etdi ki, 2012-ci ildə rayon üzrə 679,31 hektar bağ mövcud olub, həmin bağlardan 2640,6 ton meyvə yığılıb. Bu sahənin inkişafı məqsədilə həmin il rayonda "Naxçıvan Kredit" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 624 nəfərə 654 min 200 manat, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən 11 nəfərə 15 min 500 manat, o cümlədən meyvə bağı salınması üçün 7 nəfərə 98 min manat, limon istixanası üçün 4 nəfərə 57 min manat kredit verilib. Nəticədə, sonrakı illərdə də müxtəlif mənbələrdən verilən kreditlər hesabına 2013-cü ildə rayonda meyvə bağlarının ümumi sahəsi 682,31 hektara, 2014-cü ildə 693,31 hektara çatdırılıb. Rayonun müxtəlif ərazilərində salınmış meyvə bağları hesabına 2015-ci ilin 1 noyabr tarixinə 2082,6 ton meyvə tədarük edilib. Birinci dövlət proqramının icrası dövründə rayonda 2 ədəd – tutumu 150 ton və tutumu 100 ton olan soyuducu anbar fəaliyyət göstərib. Qeyd olunanları tərəvəz əkini sahələrinə də aid etmək olar. Əgər 2012-ci ildə rayonda 572 hektar kartof sahəsindən 8377,52 ton kartof, 670 hektar tərəvəz sahəsindən 4381 ton tərəvəz yığılmışdısa, 2015-ci ildə 574 hektar sahədən 8434 ton kartof, 672 hektar tərəvəz sahəsindən isə 4710,7 ton tərəvəz tədarük edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası Ordubad rayonunda da uğurla davam etdirilir. Proqramın icra müddətini əhatə edən 2016-cı ilin yaz mövsümündə Naxçıvan-Ordubad magistral yolunun Dəstə kəndi ərazisində 1 hektar alma bağı, Aşağı Əylis kəndi ərazisində 9,5 hektar yeni meyvə bağı, Gilançay vadisində isə 1 hektar cəviz bağı salınıb. Ümumilikdə, yaz iməcilikləri dövründə 7600 ədəd meyvə ağacı əkilib, 11,5 hektar yeni bağ salınıb, 5 hektar meyvə bağı bərpa olunub. Həmin dövrün payız iməciliklərində isə Aşağı Əylis kəndi ərazisində 5,7 hektar sahədə yeni meyvə bağı salınıb, 5120 ədəd meyvə tingi əkilib, 1 hektar sahədə üzüm bağı, Naxçıvan-Ordubad magistral yolunun Düylün yol ayrıcında isə 4 hektar sahədə tut bağı salınaraq, ümumilikdə, 2016-cı ildə rayonda 27,2 hektar sahədə yeni bağ salınıb, 7 hektar sahədə meyvə bağı bərpa edilib. 2016-cı ildə rayonda 575 hektar sahədə kartof əkini, 673 hektar sahədə tərəvəz əkini aparılıb. Cari ilin göstəricilərinə gəldikdə isə 2017-ci ilin yaz iməciliklərində Naxçıvan-Ordubad magistral yolunun Əylis kəndi ərazisində 5 hektar sahədə yeni qızılgül bağı, 1 hektar sahədə meyvə bağı, Şəhriyar qəsəbəsində 2 hektar sahədə meyvə bağı salınıb, Sabirkənd ərazisində gələcəkdə əkilməsi üçün 1 hektar sahədə üzüm çubuqları əkilib.

Göründüyü kimi, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı istiqamətində görülən işlər ordubadlı torpaq mülkiyyətçiləri üçün yeni imkanlar açıb. Yuxarıda da qeyd etdiyimiz kimi, Ordubadın qədim meyvəçilik tarixi var. Meyvəçiliyin inkişafında, onun şöhrətinin geri qaytarılmasında, əhalinin daha yaxşı gəlir sahibi olmasında, insanların məşğulluğunda mühüm əhəmiyyət kəsb edən bu sahənin inkişafına yaradılan hərtərəfli şərait tezliklə daha böyük nəticələr əldə olunmasına inam yaradır. İnanırıq ki, turizmin inkişaf etdirildiyi muxtar respublikada Ordubad təkcə tarixi keçmişi ilə deyil, həm də bundan sonra barlı-bəhərli meyvə bağları ilə də buraya gələnləri məftun edəcəkdir.

**Səbuhi HƏSƏNOV**

# "Gəmiqaya" Tikinti Materialları Satış Mərkəzi keyfiyyətli məhsul satışına üstünlük verir

***Muxtar respublikamızda yerli xammaldan səmərəli istifadə etməklə daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəlif təyinatlı yeni istehsal müəssisələri yaradılır və ya mütərəqqi texnologiyalar tətbiq olunmaqla fəaliyyəti dayanmış müəssisələrin işi bərpa edilir.***



Tikinti materiallarına olan tələbatın ödənilməsi istiqamətində də mühüm işlər görülür, həmin materialları istehsal edən müəssisələr fəaliyyətə başlayır. Təbii ki, bu da tikinti-quraşdırma işlərinin sürətlə aparılmasına rəvac verir. Digər tərəfdən, əhalinin gəlirlərinin artması səbəbindən fərdi evlərin tikintisi və təmiri işlərinin də həcmi ilbəil genişlənir. Bu proses bazarda tikinti materiallarına olan tələbatı artırır, istehlakçılar, təbii ki, daha keyfiyyətli tikinti materiallarına üstünlük verirlər. Onu da qeyd edək ki, əvvəllər hər hansı bir tikinti materialını almaq üçün günlərlə vaxt itirmək lazım gəlirdisə, indi ən keyfiyyətli məhsulu qısa zamanda əldə etmək mümkündür. Çünki bu gün Naxçıvan şəhərində tikinti materiallarının satışı üzrə ixtisaslaşmış bir neçə ticarət mərkəzi fəaliyyət göstərir. Onlardan biri də "Gəmiqaya" Tikinti Materialları Satış Mərkəzidir.

Ötən günlərdə yolumuzu sözügedən satış mərkəzindən saldıq. İş prosesi ilə tanışlıq zamanı öyrəndik ki, bu mərkəz 2011-ci ilin yanvar ayından fəaliyyətə başlayıb. Hazırda burada tikinti materiallarının, elektrotexnika avadanlıqlarının, xalçaçılıq məmulatlarının, məişət avadanlıqlarının, müxtəlif dizaynlı mebellərin satışı həyata keçirilir. Mərkəzdə muxtar respublikada istehsal olunan məhsullar, eləcə də dünyanın bir çox ölkələrinin, o cümlədən Türkiyənin, Yaponiyanın, İsveçrənin, Fransanın, Finlandiyanın, Belçikanın məhsulları satışa çıxarılıb. Bu da alıcılara daha geniş seçim imkanları yaradıb. Burada həmin mallar 10-15 faiz ucuz qiymətlərlə təklif olunur. Satılan malların ünvanda quraşdırılması da mərkəz tərəfindən təmin edilir.

Son illər muxtar respublikada istehsal olunan yüksəkkeyfiyyətli məhsullara tələbat artıb. Bunları nəzərə alan mərkəz həmin məhsulların satışını təşkil edib. Hazırda burada Naxçıvanda istehsal olunan bir neçə adda və çeşiddə tikinti materialları istehlakçılara təqdim edilir. 30 nəfərin işlə təmin olunduğu mərkəzdə məhsulların əksəriyyəti İSO 9001 standartlarına uyğundur. Türkiyənin tanınmış boya firmalarından olan "Kale kolor", keramika məhsulları istehsalında öndə gedən "Ege seramik", Almaniya məişət avadanlıqları istehsalı bazarında birinci yeri tutan "Siemens" firmalarının məhsulları burada müştərilərə sərfəli qiymətlərlə təklif edilir. Yüksək zövqlə ən müasir standartlara uyğun inşa edilmiş və alıcılar üçün hərtərəfli şərait yaradılmış satış mərkəzində muxtar respublikada fəaliyyət göstərən tikinti şirkətlərinə və əhaliyə nümunəvi xidmət göstərilir.

Burada yaradılan bölmələrdən birini hamam aksesuarları və təmizlik məhsulları təşkil edir. Həmin məhsullar 30-40 faiz aşağı qiymətə satılır. Türkiyə istehsalı olan müxtəlif çeşidli kafel, metlax və yer daşları istehlakçıların seçim imkanlarını artırır. Müxtəlif alətlər, təsərrüfat, boya məhsulları, təhlükəsizlik geyimləri, cehizlik mallar və xalçalar da istehlakçıların ən çox maraq göstərdiyi məhsullardandır. Türkiyənin "Özgür aydınlatma" firması ilə bağlanmış müqavilə əsasında muxtar respublikaya gətirilən bir-birindən gözəl, yaraşıqlı çilçıraqları 50 faiz aşağı qiymətə əldə etmək mümkündür. Alıcılar burada nəfis şəkildə işlənmiş Türkiyə, İtaliya və Cənubi Koreya istehsalı olan divar kağızlarını münasib qiymətə əldə edə bilərlər. Mərkəzdə həyət evlərində istifadə edilən oturacaqların, çardaqların, elektrik dirəklərinin və işıqlı ağacların satışı da həyata keçirilir. Bağ həvəskarlarının da istəyi diqqətdən kənarda qalmayıb. Belə ki, burada ayrıca bir hissədə müxtəlif gül və bitki toxumlarının, gübrələrin satışı təşkil edilib.

Mərkəzin elektronika bölməsində istehlakçılara televizorlar, musiqi mərkəzləri, soyuducular, kondisionerlər, paltaryuyan və qabyuyan maşınları 2 il zəmanətlə təklif olunur. Bunlar dünyanın ən məşhur firmalarına məxsus məhsullardır. Elektrikli ev alətləri bölməsi də istehlakçılar tərəfindən maraqla qarşılanan bölmələrdən biridir. Burada Türkiyə Respublikasının "Borsan elektrik", "Günsan elektrik", Almaniyanın "Şnayder" firmalarının məhsulları təqdim edilir.

Mətbəx mebel dəstlərinin satış bölməsində olan məhsullar alıcıların arzu və istəklərinə uyğun səmərəli seçim etməyə imkan verir. Yüksək keyfiyyəti ilə seçilən bu məhsullar beynəlxalq standartlara tam uyğundur. Yataq, uşaq, qonaq otağı və yumşaq mebel dəstlərinin satışı da yüksək səviyyədə təşkil olunub. Mərkəzdə qonaqların istirahəti və uşaqların əylənməsi üçün də hərtərəfli şərait var. Bu məqsədlə xüsusi bölmələr yaradılıb. Buradakı xidmət insanların daha rahat şəkildə yüksək zövqlə seçim etmələrinə imkan verir.

**Nail ƏSGƏROV**

# Səyyar xidmətin fəaliyyəti razılıqla qarşılanır

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaradılan səyyar xidmətin fəaliyyəti əhali tərəfindən böyük rəğbətlə qarşılanır. Nazirliyin əməkdaşı, polis kapitanı Seymur Tağıyevdən aldığımız məlumata görə, "Hyundai" markalı səyyar xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının, şəxsiyyət vəsiqəsinin verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, eləcə də məhkumluq haqqında və arxiv arayışlarının verilməsi üzrə hüquqi xidmətlər göstərilir.

Seymur Tağıyevin sözlərinə görə, səyyar xidmət hazırda fəaliyyətini Babək qəsəbəsində davam etdirir. İyun ayının 19-dək Nehrəm kəndində olan xidmətin əməkdaşlarına, ümumilikdə, şəxsiyyət vəsiqəsi üçün 47, sürücülük vəsiqəsi üçün 25, məhkumluq arayışı üçün isə 1 nəfər müraciət edib.

Səyyar xidmətin növbəti ünvanı isə Qahab kəndi olub.

**Muxtar RZAZADƏ**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 14 yanvar tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin əlli illik yubileyi geniş qeyd olunur. Bu təhsil ocağı fəaliyyət göstərdiyi 50 il ərzində özünəməxsus inkişaf yolu keçmiş, müasir təhsil tariximizdə möhtəşəm uğurları ilə iz qoymuşdur.***



*Naxçıvan Dövlət Universiteti – 50*

# Milli ali təhsil quruculuğunun parlaq təzahürü

Vaxtilə keçmiş SSRİ məkanında olan 20 muxtar respublika arasında yalnız Azərbaycanın bu ayrılmaz guşəsində ali məktəb yox idi. Bu da Kreml siyasətinin ikili standartlarının nəticəsi idi. 1939-1954-cü illərdə fəaliyyət göstərmiş Naxçıvan Dövlət Müəllimlər İnstitutu ikiillik təhsil verir və natamam (o zaman V-VII siniflər) məktəblər üçün kadrlar hazırlayırdı. Elə muxtar respublikalar var idi ki, oradakı ali məktəblərin sayı Azərbaycan SSR-dəki ali təhsil ocaqlarının sayından, bəlkə də, çox idi.

Naxçıvanlı ziyalıların bu faktları ozamankı mərkəzi hökumətə şikayət məktubları vasitəsilə çatdırması, nəhayət, 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının yaradılması ilə nəticələndi. İlk 5 ildə filialda üç ixtisas – tarix, riyaziyyat, dil-ədəbiyyat olmaqla, əyani və qiyabi şöbələrdə 102 tələbə təhsil aldı. Daha sonra təhsil ocağında Coğrafiya fakültəsi yaradıldı.

Filial indiki Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun yerləşdiyi binada fəaliyyətə başladı. Həmin bina isə 1950-ci illərdə inşa olunmuş, Naxçıvan şəhər 1 nömrəli orta məktəbin istifadəsinə verildiyi üçün yararsız bir hala düşmüşdü.

1969-cu ildə Azərbaycan KP MK-nın I katibi vəzifəsinə təyin olunan ulu öndər Heydər Əliyev Naxçıvan filialının müstəqil Pedaqoji İnstituta çevrilməsi və şəhərin şimal-qərbində hərbi hissələr yerləşən indiki əraziyə köçürülməsini təşkil etdi.

Naxçıvan Dövlət Universiteti 1972-1999-cu illərdə özünün ikinci inkişaf mərhələsinə qədəm qoydu. Akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu kimi fəaliyyət göstərdi. İqtisadiyyat, bir qədər sonra Tibb, İncəsənət kimi yeni fakültələr yaradıldı. 1974-cü ilin 4 oktyabrında ölkə başçısı, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının yaradılmasının 50 illiyi ilə əlaqədar diyarımıza gələrkən buradakı ali təhsil ocağında da oldu, Naxçıvan Dövlət Universitetinin kollektivi ilə görüşüb mühüm tapşırıqlar verdi.

1990-cı ildə mövcud Pedaqoji İnstitut Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Dövlət Universitetinə çevrildi. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci ildə iki dəfə Naxçıvan Dövlət Universitetində olması, universitetin 25 illik yubileyində iştirak etməsi, milli ali təhsilin inkişafı ilə bağlı verdiyi tapşırıq və tövsiyələr kollektivi yeni nailiyyətlərə ruhlandırdı.

1999-cu ildə universitet üçün altımərtəbəli indiki rektorluq korpusu istifadəyə verildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev korpusun açılışında iştirak edərək geniş nitq söylədi, kollektiv qarşısında mühüm vəzifələr qoydu. Bu illər ərzində universitetin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işləri təkcə bununla müqayisə etmək kifayət edər ki, sovet dövründə bu ali məktəb üçün yalnız bir üçmərtəbəli tədris korpusu və dördmərtəbəli tələbə yataqxanası inşa olunmuşdu.

AMEA-nın həqiqi üzvü, Milli Məclisin deputatı İsa Həbibbəylinin on yeddi ilə yaxın Naxçıvan Dövlət Universitetinin rektoru olduğu dövrdə burada təhsil strategiyasının uğurlu tətbiqi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edildi. Həmin illərdə universitet Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu vəzifələrin icrası sayəsində əhəmiyyətli uğurlara imza atdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2004-cü ildə beşmərtəbəli elektron kitabxana binasının açılışında iştirak etdi, kollektiv qarşısında ətraflı nitq söylədi. Dövlət başçısının "Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında" 2007-ci il 31 mart tarixli Sərəncamı ilə bu yubiley dövlət səviyyəsində qeyd olundu. Yubiley tədbirində şəxsən iştirak edən ölkə başçısı universitet əməkdaşlarını müxtəlif fəxri adlarla təltif etdi.

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Saleh Məhərrəmovun universitetə rəhbərlik etdiyi son beş ildə isə ali təhsil ocağı yeni uğurlara imza atmışdır. Bu gün Naxçıvan Dövlət Universitetində bakalavr, magistr, doktorantura və rezidentura səviyyələri üzrə kadr hazırlığı həyata keçirilir. Tədris bazasının daha da möhkəmləndirilməsi məqsədilə ali təhsil ocağında yeni fənn kabinələri və laboratoriyalarının qurulması, yaxud mövcud olanların zənginləşdirilməsi istiqamətində də işlər görülmüşdür. Memarlıq və mühəndislik fakültəsində 3 fizika laboratoriyası, Pedaqoji fakültədə isə texnologiya müəllimliyi ixtisası üzrə yeni kabinə qurulmuşdur.

Universitetdə 10 fakültə, əlavə olaraq magistratura üzrə dekanlıq, xarici tələbələrlə iş üzrə dekanlıq və 47 kafedra fəaliyyət göstərir, bakalavr səviyyəsində 56, magistratura səviyyəsində isə 41 ixtisas üzrə mütəxəssis hazırlanır.

Bu gün universitetdə təhsil Bolonya sistemi əsasında aparılır. Kredit sistemi ilə tədrisin təşkilində Bolonya bəyannaməsinin müddəalarına müvafiq olaraq tələbələrin akademik mobilliyi əsas yerlərdən birini tutur. Naxçıvan Dövlət Universitetində bir sıra tədbirlər, o cümlədən tələbə mobilliyi uğurla həyata keçirilir. Yeni təhsil standartlarına keçidlə əlaqədar tədbirlər 2013-cü ildən başlayaraq bakalavriat səviyyəsində tədrisin kredit sistemi ilə təşkili qaydalarında islahatlar aparılmış və bir çox yeniliklərə imza atılmışdır.

Universitetdə "Elektron universitet" layihəsinin həyata keçirilməsinə başlanmışdır. 2015-ci ildə Naxçıvan Dövlət Universitetində Cənubi Koreya Respublikasının qrant layihəsi əsasında "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsi uğurla reallaşdırılmışdır.

2015-ci ildə istifadəyə verilən Baytarlıq ixtisası tələbələri üçün universal laboratoriya, universitet xəstəxanası üçün diaqnostika, stomatologiya, göz, cərrahiyyə anesteziologiya və reanimasiya, sterilizasiya, fizioterapiya kabinələri, laboratoriya universitetimizə hədiyyə olunmuşdur.

Naxçıvan Dövlət Universitetinin dünya ölkələrinin aparıcı universitetləri ilə əlaqələrinin genişləndirilməsi təhsilimizin dünya təhsil sisteminə inteqrasiyasını sürətləndirir, bu sahədə aparılan məqsədyönlü islahatların uğurla həyata keçirilməsinə zəmin yaradır. Universitet dünyanın müxtəlif qabaqcıl ali təhsil ocaqları ilə geniş əlaqələrə malikdir.

Naxçıvan Dövlət Universiteti Avropa Şurasının TEMPUS proqramının 5 layihəsinin iştirakçısıdır. Universitetin beynəlxalq sferada tanınması burada təhsil alan dünyanın müxtəlif ölkələrinin vətəndaşlarının sayının artmasına səbəb olub. Hazırda bu ali təhsil müəssisəsində təhsilin bakalavr pilləsində 185, magistraturada 57 nəfər xarici vətəndaş təhsil alır. Onlar Türkiyə, İran, Gürcüstan, Koreya, Banqladeş, Nigeriya və digər ölkələrin vətəndaşlarıdır.

Tədrisin keyfiyyətinə, maddi-texniki bazanın formalaşmasına, mütəxəssis hazırlığına göstərilən diqqət və qayğının nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti iki dəfə – 2014-cü ildə 799 balla və 2017-ci ildə 827 balla Azərbaycan ali təhsil müəssisələri içərisində birinci yerə layiq görülmüşdür. Bütün bunlar universitetin dünyaya inteqrasiya yolu ilə gedərək müasir tələblərə cavab verən pedaqoji kadr hazırlığı istiqamətində əhəmiyyətli uğurlar qazandığını bir daha təsdiqləyir.

**Nadir HÜSEYNBƏYLİ**
**Abbas HACIYEV**
***Naxçıvan Dövlət Universitetinin əməkdaşları***

# Gənclərin və aztəminatlı ailələrin uşaqlarının "Yay məktəbi" təşkil edilib





***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası tərəfindən Ağbulaq İstirahət Mərkəzində gənclərin və aztəminatlı ailələrin uşaqlarının "Yay məktəbi" təşkil olunub.***

"Yay məktəbi" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Təhsil, Gənclər və İdman, Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının iştirakı ilə reallaşıb.

"Yay məktəbi"nin iyunun 10-dan avqustun 13-dək hər qrup üzrə 3 günlük olmaqla keçirilməsi nəzərdə tutulur. Hər qrup tələbə, şagird, sağlamlıq imkanları məhdud uşaq, aztəminatlı ailələrin uşaqları və ya idmançı olmaqla, 60 gənc, 1 həkim və 4 nəzarətçi-müəllimdən ibarət olacaq.

İyunun 19-da "Yay məktəbi"ndə iştirak etmək üçün sağlamlıq imkanları məhdud uşaqlar və onların valideynlərindən ibarət ilk qrup Ağbulaq İstirahət Mərkəzinə yola düşüb.

Saat $10^{00}$-da Naxçıvan şəhərindən yola düşən avtobusda uşaqların həyəcanını sezmək heç də çətin deyildi. Yanımda əyləşən bir uşaq gözünü qol saatından çəkmirdi. Ondan əvvəlcə adını soruşuram. Çəkinə-çəkinə "adım Lamiyədir", – deyir. Sonra isə saata niyə belə tez-tez baxmasının səbəbini soruşuram. Bildirir ki, Ağbulağa ilk dəfədir, gedir, istirahət mərkəzinə tez çatmağı arzulayır.

Nəhayət, Lamiyənin timsalında Ağbulağa ilk dəfə səfər edən uşaqların gözlədiyi an gəlib çatır.

Avtobusdan səbirsizliklə enən uşaqlar onlar üçün ayrılmış otaqlara yollanırlar. Çox keçmir ki, istirahət mərkəzinin həyətində uşaq gülüşləri pərvazlanır. Gələn kimi qaynayıb-qarışmalarından bəllidir ki, burada çox maraqlı üç gün keçirəcəklər, yeni dostlar qazanacaqlar.

Gün ərzində yeməkdən sonra istirahət mərkəzinin həyətində toplaşan uşaqlar futbol və müxtəlif oyunlar oynayırlar. Ardınca dama yarışı keçirilir. Yarışın qalibləri fəxri fərmanlarla mükafatlandırılırlar. Onlardan biri də Samir İmanquliyevdir. Onunla söhbət edirəm. Samir deyir:

– Babək rayonun Xəlilli kəndindən gəlmişəm. İlk dəfədir, Ağbulaqda təşkil olunan "Yay məktəbi"ndə iştirak edirəm. Burada olmağımdan məmnunam. Yarışda qalib gəlməyin özü isə ayrıca bir sevincdir.

Gün ərzində mütaliə olunmuş kitablar müzakirə edilir və "Dolu" filminə baxılır.

"Yay məktəbi"nin ikinci gününə səhər gimnastikası ilə başlayan uşaqlar gün ərzində maraqlı oyunlar oynayır, onlar arasında şahmat yarışı keçirilir. Şahmat yarışının qalibləri fəxri fərmanlarla təltif olunurlar.

Axşam vətənpərvərlik mövzusunda filmə baxdıqdan sonra uşaqlar bir-birləri ilə sağollaşıb yatmaq üçün otaqlarına yollanırlar.

Üçüncü gün... Uşaqlar bilirlər ki, bu gün bir yerdə keçirdikləri sonuncu gündür və onlar axşam geri qayıdacaqlar. Yola düşməyə dəqiqələr qalanda saatlar qalmasına baxmayaraq, uşaqlar bilik yarışında böyük ruh yüksəkliyi ilə iştirak edirlər.

Yarım saat sonra biz hamılıqla şəhərə yola düşürük. Ordan da hərə öz rayonuna, kəndinə. Üç gün insanlarla dostluq qurmaq, təəssüratlar qazanmaq üçün, fikrimcə, kifayət edir. Yola düşməyə dəqiqələr qalanda onların təəssüratlarını öyrənməyə çalışıram. Lamiyə Əliyeva deyir: – İlk dəfədir ki, ailəmdən uzaq harasa gedirəm. Düzü, gələndə çox darıxırdım. Amma uşaqlarla çox tez qaynayıb-qarışdım. O qədər maraqlı gəzinti oldu ki, üç günün necə gəlib keçdiyini belə, bilmədim.

Pünhan Səfərov: – Bu mənim Ağbulağa ilk gəlişim deyil. Artıq üçüncü ildir ki, mən təşkil olunmuş bu gəzintilərdə iştirak edirəm. Hər gəlişimdə fərqli uşaqlarla rastlaşmağıma baxmayaraq, qısa zamanda hamısı ilə dostlaşmışam. Elə bu dəfə də. Üç gündür ki, burdayam. Bu dəfə də yaxşı dostlar qazandım, maraqlı oyunlar oynadıq. Evdəkilər üçün darıxmasaydım gəzintinin daha uzunmüddətli olmağını istəyərdim.

Anar Qurbanov: – Naxçıvan şəhərindən gəlmişəm. Muxtar respublikada keçirilən şahmat yarışlarının bəzilərində iştirak edib, diplom və



fəxri fərmanlar almışam. Buna görə də oyunda qalib olmaq mənim üçün çətin deyildi.

Cəlal Mürsəlli: – Buranın çox gözəl təbiəti, uşaqların oynamağı üçün də şəraiti var. Qayıdan kimi evdəkilərə, dostlarıma burda oynadığımız oyunlar haqqında danışacağam. Burada Anarla, Mürsəllə yaxşı dost oldum.

Şərur rayonunun Ərəbyengicə kəndindən olan Aysu Yusifovanın valideyni Qönçə Şirinova: – Övladlarımız maraqlı üç gün keçirdi. Bir valideyn olaraq sağlamlıq imkanları məhdud uşaqlara göstərilən qayğıya görə dövlətimizə öz minnətdarlığımı bildirirəm. Belə uşaqların səhhəti, təhsili, əyləncəsi üçün muxtar respublikada hər cür şərait yaradılıb. Onlar evə qapanmır, tək qalmır, əksinə, öz həmyaşıdları ilə bir yerdə təhsil alır, parklarda oynayırlar. Bir valideyn kimi buna çox sevinirəm. Belə məqsədyönlü tədbirlər nəticəsində uşaqlarımızın çöhrəsində gülüş görürük. Bir valideyn üçün bundan vacib nə ola bilər ki?

Bəli, Qönçə xanım haqlıdır. Valideyn üçün övladını xoşbəxt görməkdən vacib heç nə ola bilməz. Valideyn həmişə övladı üçün çalışır, çapalayır, onun yaxşı yaşaması üçün əlindən gələni edir. O, can atır ki, övladı cəmiyyətdə yaxşı bir mövqe tutsun, rahat, dərdsiz-sərsiz bir həyat yaşasın. Təəssüf ki, bütün uşaqlar dünyaya sağlam gəlmir. Lakin valideyn üçün övlad elə övladdır. Bəzi hallarda sağlamlıq imkanları məhdud uşaqlara baxmaq, nəzarət etmək çətin olsa da, belə hallarda dövlətimiz valideynləri tək qoymur. Dövlətin maddi və mənəvi dəstəyi, qayğısı daima onların üzərində olur. Bu gün muxtar respublikada belə uşaqlar üçün yaradılmış şərait də bunu deməyə əsas verir.

Artıq vaxtdır… Bir-birləri ilə sağollaşan uşaqlar könülsüz şəkildə avtobuslara doğru addımlayırlar. Üç gün ərzində onların çöhrələrindəki təbəssüm, gözlərindəki işıq bu uşaqların Ağbulaqda keçirdikləri xoş saatlardan necə məmnun qaldıqlarını ifadə edirdi.

Növbəti gün bura yeni qrup gələcək. "Yay məktəbi"ndə, ümumilikdə, 840 gənc, 14-ü həkim olmaqla, 70 nəzarətçi-müəllim iştirak edəcək. Burada keçirəcəkləri mənalı günlər onların da xatirəsində həmişəlik yaşayacaq.

Yola düşürük… Bəziləri fikirlərini sözlərlə ifadə edə bilməsə də, hərəkətləri, gözləri ilə sağollaşırlar. Balaca olmalarına baxmayaraq, köksünə sığmayan böyük ürəkləri var onların. Hərdən mənə elə gəlir ki, onlar böyüklərə də səbir və şükür etməyi, güclü olmağı öyrədirlər. Dövlətimizin himayəsi isə bu uşaqlara sevinc bəxş edir. Müdriklərin dediyi kimi, uşaqlar gülərsə, dünya da gülər!

**Fatma BABAYEVA**

## “Nuh yurdunun rəngləri” adlı fərdi rəsm sərgisi açılıb

*İyunun 20-də Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adına sərgi salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın “Nuh yurdunun rəngləri” adlı fərdi rəsm sərgisi açılıb.*

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli sərginin açılış mərasimində çıxış edərək rəssamın yaradıcılığını yüksək qiymətləndirib. O deyib ki, Həbibə Allahverdiyeva rəssamlıq sənətində realist-romantik üslubda əsərlər yaradan istedadlı fırça ustasıdır. Onun əsərlərində həyatın obyektiv dərkini, real mənzərəsini görmək mümkündür. Rəssamın əsərləri tünd rənglərlə ağ rənglər arasındakı mənzərəni, çaları özündə əks etdirir. O həm təbiətdəki, həm də insandakı zərifliyi bütün parlaqlığı ilə tərənnüm etməyi bacarır.

Akademik bildirib ki, Həbibə Allahverdiyeva sənətin ümumi mənzərəsində rəngdən-rəngə, əsərdən-əsərə fırçanın istiqamətini dəqiqləşdirən rəssamlardandır. Eyni zamanda özünüifadəni fırçanın dili ilə canlandırmağı bacaran sənətkarlardandır. Bütün bunları nəzərə alaraq deyə bilərəm ki, o, Azərbaycanda realist-romantik üslubun orijinallığını qoruyan rəssamlardandır.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva çıxış edərək rəssamın özünəməxsus yaradıcılıq üslubundan bəhs ediblər.

Qeyd olunub ki, Həbibə Allahverdiyeva quruluş və kompozisiyalara diqqət yetirməklə yanaşı, janr və mövzunu da əsərlərində mükəmməl şəkildə əks etdirir. Rəssam yaradıcılığında qrafika, mənzərə, portret, natürmort janrlarına, tematik şəkillərə üstünlük verir. Onun əsərləri məna və mövzu dolğunluğu ilə diqqəti cəlb edir.

Sonra sərgiyə baxış olub.

Bir həftə davam edəcək sərgidə rəssamın 80-dək əsəri nümayiş olunur.

**Xəbərlər şöbəsi**

## İstedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil edilib

*Culfa şəhər 3 nömrəli tam orta məktəbdə rayonda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil edilib.*

Bu sərgidə rayon üzrə 40 istedadlı qadının sulu və yağlı boya ilə işlənən tablolarından, toxuculuq və bir-birindən maraqlı dekorativ-tətbiqi sənət nümunələrindən ibarət 450 rəsm və əl işlərinin sərgi-satışı təşkil edilib.



Sərginin açılışında çıxış edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev bildirib ki, göstərilən dövlət qayğısı nəticəsində muxtar respublikanın digər rayonlarında olduğu kimi, Culfa rayonunda da qadınların sosial-ictimai həyatda fəal iştirakının təmin edilməsi üçün əlverişli şərait yaradılıb. Bu gün qadınlar rayonun sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılmasına dəyərli töhfələr verir, elm, təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə uğurlar əldə edirlər. Rayonda yaşayan qadınlar yerli özünüidarəetmə orqanlarında təmsil olunur, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində rəhbər vəzifələrdə fəaliyyət göstərirlər.

Şükür Babayev qeyd edib ki, xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşadan qadınların əl işlərindən ibarət sərgilərin təşkil olunması onlara göstərilən dövlət qayğısının daha bir nümunəsidir. Belə sərgilərin təşkil edilməsində məqsəd qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaqdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, bu gün milli dəyərlərimizin öyrənilməsi, təbliği istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Həmin tədbirlərin tərkib hissəsi kimi, qədim sənətkarlıq sahələrinin dəstəklənməsi, əl işlərinin sərgi-satışlarının təşkil olunması, keçirilən yaradıcılıq müsabiqələrində, mədəni-kütləvi tədbirlərdə istedadlı gənc qadınların iştirakının təmin edilməsi milli dəyərlərimizin qorunmasına əsaslı töhfələr verir.

Vurğulanıb ki, milli varlığımızın ifadəsi olan çoxəsrlik milli və mənəvi, o cümlədən ailə dəyərlərinin, adət-ənənələrin yaranmasında və təşəkkül tapmasında, layiqincə yaşadılmasında qadınlarımız böyük rol oynayıb. Buna görə də həyata keçirilən dövlət qadın siyasətinin tərkib hissəsi olaraq istedadlı qadınların fəaliyyətinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Gənc qızların peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün peşə kurslarının təşkil olunması, sənət nümunələrinin qadınlarımız tərəfindən qorunub saxlanılması, yaşadılması baxımından mühüm əhəmiyyətə malikdir.

Ramilə Seyidova qeyd edib ki, bu gün muxtar respublikada yaradılan şərait, mədəni mühit qadınların zəngin potensialının üzə çıxarılmasına əlverişli zəmin yaradır. Bu, daimi səciyyə daşımaqla, bütövlükdə, qadınların cəmiyyətdə layiqli mövqeyini qoruyub saxlamağa imkan verir. Culfa rayonunun istedadlı qadınları da yaradılan bu imkandan istifadə edərək bundan sonra da adət-ənənələrimizi, ailə dəyərlərimizi yaşadacaqlar.

Sonda qadınların əl işlərindən ibarət sərgiyə baxış olub.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## “Xəmsə” intellektual oyununun qalibləri mükafatlandırılıblar

*18 iyun – İnsan Hüquqları Günü münasibətilə ali təhsil müəssisələri arasında keçirilən “Xəmsə” intellektual oyununda Naxçıvan Dövlət Universitetinin komandası birinci yerə layiq görülüb. Komandanın üzvləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Dövlət Universiteti tərəfindən sertifikat və fəxri fərmanlarla təltif ediliblər.*

Bu münasibətlə keçirilən tədbirdə tələbələri təbrik edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğıdan danışıb. Vurğulanıb ki, keçirilən yarışlar gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında elmə marağı artırmaq, Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətini və tarixini təbliğ etmək, eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkilinə nail olmaq məqsədi daşıyır.

Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev, Beynəlxalq münasibətlər ixtisasının III kurs tələbəsi Aslan Səfərov çıxış edərək muxtar respublikamızda gənclərə göstərilən qayğıdan danışıblar.

Sonda yarışın qalibləri mükafatlandırılıblar.

**Səadət ƏLİYEVA**

## Növbəti maarifləndirici tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində “Naxçıvan Muxtar Respublikasının dini turizm potensialı” mövzusunda maarifləndirici tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Samir Abbasov açaraq son illərdə muxtar respublikanın turizm potensialının tanıdılması istiqamətində görülən işlərdən danışıb, dini turizmin inkişafı üçün qədim diyarımızda böyük imkanlar olduğunu qeyd edib.

Görüşdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Əkbər Novruzov çıxış edərək muxtar respublikanın dini turizm potensialı barədə iştirakçılara məlumat verib. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı vardır. Bu baxımdan dini turizm də özünəməxsus yerə malikdir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması burada milli və mənəvi dəyərlərə verilən önəmin ifadəsidir. Son illər Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm marşrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında mühüm bir vasitə rolunu oynayır. Muxtar respublikamız ziyarətgahlarla da zəngindir. Burada 140-a yaxın ziyarətgah mövcuddur. Muxtar respublika ərazisində mövcud olan dini obyektlərdən ən mühümü müqəddəs “Qurani-Kərim”in “Əl-Kəhf” surəsində haqqında bəhs edilən Əshabi-Kəhf ziyarətgahıdır. Burada ziyarətçilər üçün hər cür şərait yaradılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının dini turizm potensialı haqqında videoçarx nümayiş etdirilib.

Sonra tədbir iştirakçıları “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində olublar.

**Nail ƏSGƏROV**

*Məktubun var, əsgər*

## Vətən sizə əmanətdir

***26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsində bir əsgər anası tərəfindən redaksiyamıza ünvanlanmış məktubu həyəcanla, qürurla oxuduq. Hərbi xidmətdə Vətənin keşiyində dayanan əsgər övladlarımıza yazılmış, vətənpərvərlik hisslərini özündə əks etdirən bu məktubları ictimailəşdirmək üçün yeni bir rubrika yaratdıq.***

***“Məktubun var, əsgər” rubrikasında məktublarınızı gözləyirik!***

**Salam, əsgər balam!**

İlk dəfədir ki, bu qədər uzun müddətə səndən ayrılıram. Altı ay mənə altı il kimi gəlir. Çox arzulamışdım bu günü. Vaxtilə həsəd aparardım əsgər analarına. İstəyirdim ki, mənim də oğlum olsun, Vətənin keşiyində dursun. Ona görə də sən dünyaya gələndə çox sevinmişdim. Heyif ki, qismət olmadı səni atanla birgə böyüdəm. Doğma elimiz Kəlbəcərin müdafiəsində atanı itirdim. Səni Murovdağın qarlı yollarında isti nəfəsimlə beşgünlük mühasirədə sağ-salamat saxlaya bildim. Amansız müharibə atanı əlimdən aldı. Səni Vətənə, atana layiq övlad kimi böyütməyə var gücümlə çalışdım. Atanı itirəndə sən ikiaylıq körpə idin. Müharibənin nə olduğunu, atasız böyüməyin necə olacağını anlaya bilməzdin. Böyüdün, məktəbə getdin, universitetdə tələbə oldun. İgid oldun, əsgər getdin. Əsgər anası oldum. Hərbi xidmətə çağırış gələndə Naxçıvan Muxtar Respublikasına göndəriləcəyini öyrəndim. Sözün düzü, çox narahat idim. Axı indiyə kimi səni heç bu qədər uzağa göndərməmişdim.

Andiçmə mərasiminə gəldiyim gün səni hərbi formada görəndə sevincdən gözlərim yaşardı. Naxçıvan elinə ilk dəfə əsgər anası kimi gəlirdim. Gördüyüm hörmət, qayğı, mehribanlıq, insanların qonaqpərvərliyi ana ürəyimə rahatlıq gətirdi. Andiçmədə tanış olduğum qadın hərbi qulluqçu əsgərlərə öz balası kimi qayğı göstərdiyini, onlara yemək hazırlayanda doğma anaları kimi diqqətli olmaqla öz vətəndaşlıq borcunu yerinə yetirməyə çalışdığını dedi. Əsgər yoldaşıngildə qonaq olduğumuz gün onun anasının səni öz balası kimi əzizləməyi məni qəhərləndirdi. Bilirəm ki, indi səni hər ay yerli əsgərlərdən biri öz evinə qonaq aparır. Sən o evdə qayğı, hörmət görürsən. Əlahiddə Ümumqoşun Orduda gördüyüm ənənə halını almış bu qayda inanıram ki, mənim kimi burada xidmət edən bütün əsgərlərin analarının ürəyincədi.

Yazırsan ki, ən yüksək sərhəd postlarında belə, vətənə xidmət edən əsgər və zabitlər üçün yaxşı şərait yaradılıb. Soyuq qış günlərində hava şəraitinə uyğun geyimlər, dadlı yeməklər biz əsgər analarını da məmnun edir. Orduda nizam-intizamın olması biz əsgər valideynlərinin diqqətindən yayınmır.

Əziz balam, sənin üçün çox darıxsam da, ürəyim rahatdı. Çünki Naxçıvan torpağında xidmət edən əsgər balaların necə qayğıyla, hörmətlə qarşılandığının şahidi oldum.

Gözümün ağı-qarası, sizin sayənizdə biz gecələr rahat yatırıq. Sizin kimi Vətən keşikçilərinin sayəsində uşaqlar məktəbə gedir, kəndlilər torpaqlarını becərir.

Mərd ol, mənim balam, qoy düşmən qorxsun! Ramil, Mübariz, Fərid, Kərim kimi oğullar yetirən bu torpağın övladları gərək dözümlü ola, oğlum! Dözümlü ol ki, düşmənin cavabını layiqincə verə biləsən.

Yaxşı ki Vətənimiz, müstəqil dövlətimiz üçün canından keçməyə hazır olan oğullarımız var. Atalarımız “Oğul düşmən çəpəridir”, – deyiblər. Oğul, Vətən uğrunda ölməyə dəyər. Yaxşı ki Vətənimiz, müstəqil dövlətimiz var. Dünyada bəzi xalqların heç müstəqil dövləti, azad Vətəni yoxdu. Canımız, Vətənimiz sizə əmanətdi, əsgər balam. Hamımızın arxalandığı, güvəndiyi sən və sənin kimi ordu sıralarında xidmət edən əsgər balalarımızdır. Nənən oğluyla qürur duyurdu. Mənim səninlə qürurlandığım kimi!

Unutma, sən şəhid övladısan! Atan 1993-cü ildə torpaq uğrunda can verdi. Ataya ən çox ehtiyacın olduğu vaxtda onu itirdin. Müharibəyə getdiyi üçün onu qınayırdım. Bu gün onunla fəxr edirəm! Çünki şəhid yoldaşı, əsgər anasıyam! İnanıram ki, şəhidlərimizin qisasını sənin kimi əsgər balalar alacaq!

Ordumuz günü-gündən güclənir. Xalqımızın sizə inamı, güvəni sonsuzdur. Sənin kimi övladların sayəsində Lələtəpəyə, Talış yüksəkliyinə üçrəngli bayrağımızı sancdıq.

Vətənə şərəflə xidmət edən şəxs daim alnıaçıq, üzüağ yaşayır. Sən də bu Vətənin keşiyində qürurla dayan! Əsgər olduğun üçün səninlə fəxr edirəm. İnşallah, 2017-ci il qələbə ili kimi tarixə düşər.

Sənin timsalında bütün əsgər balaları öpür, bağrıma basıram! Allah sizi qorusun, Azərbaycan əsgəri!

**Alimə İSMAYILOVA**
***Goranboy rayonu, Ağcakənd qəsəbəsi***

### İtmişdir

Əsgərova Pakizə Əkbər qızının adına olan 1044 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

“Tədris-Ticarət” Mərkəzinə məxsus 0200032391 nömrəli VÖEN və uçot vahidlərinin dövlət reyestrinə daxil edilməsi haqqında şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 513